SİNAM
IT's our business

TƏSDİQ EDİRƏM:
«SINAM MMC»
ŞİRKƏTİNİN DİREKTORU
______________ Rəhmanov A.
«14» mart 2025-ci il.

# SİNAM ŞİRKƏTİNİN KEYFİYYƏT SİYASƏTİ

SİNAM şirkəti çoxillik iş təcrübəsini və dünyanın aparıcı informasiya texnologiyaları şirkətlərinin həllərini tətbiq etməklə keyfiyyət siyasətini müasir İKT bazarının tələblərinə uyğun şəkildə həyata keçirir. Bu tələblərə aşağıdakılar daxildir:

- Müştərilər və tədarükçülərlə qarşılıqlı əlaqələri tam razılıq və qarşılıqlı fayda prinsipləri əsasında qurmaq;
- İnformasiya-kommunikasiya texnologiyaları (İKT) məhsulları və xidmətlərinin həm regional, həm də beynəlxalq bazarda istehsalı sahəsində lider mövqeləri təmin etmək və inkişaf etdirmək;
- Yüksək texnologiyalı informasiya sistemlərinin aparıcı istehsalçıları ilə uzunmüddətli və sıx əməkdaşlığı dəstəkləmək;
- Şirkət əməkdaşlarının peşəkar səviyyəsini və bacarıqlarını daim inkişaf etdirmək;
- Keyfiyyətin idarə olunması sistemini qanunvericiliyin tələblərinə və ISO 9001 standartına uyğun olaraq dəstəkləmək və dinamik şəkildə inkişaf etdirmək;
- Davamlı texnologiyalarla bağlı artan tələbi nəzərə almaqla layihələrin işlənib hazırlanması zamanı bazara daha davamlı, enerji baxımından sərfəli və ekoloji baxımdan təhlükəsiz həllər təklif etmək;
- Davamlılıq, karbon izinin azaldılması və ətraf mühitin qorunması sahəsində yüksək standartlar nümayiş etdirən tərəfdaşlar seçməyə və onlarla əməkdaşlıq etməyə çalışmaq;
- Proqram təminatının hazırlanması və tətbiq edilməsi zamanı məlumatları qorumaq və informasiya təhlükəsizliyinin bütün aspektlərini nəzərə almaq.

Şirkətin bütün əməkdaşları idarəetmə sisteminin inkişaf etdirilməsi prosesinə cəlb edilib və SİNAM şirkətinin regional və beynəlxalq İKT bazarlarında rəqabətədavamlı mövqeyə sahib olmasını təmin etmək üçün yeni ideya və həllərin axtarışında fəal şəkildə iştirak edirlər.

Keyfiyyət siyasəti şirkətin aşağıdakı fəaliyyət istiqamətlərini əhatə edir:

- Proqram təminatının hazırlanması və sistem inteqrasiyası, Telekommunikasiya şəbəkələri, İKT (İnformasiya və Kommunikasiya Texnologiyaları) məhsullarının çatdırılması və satışı, Texniki xidmət və dəstək, İT konsaltinq xidmətləri